Mayın 2-də Təhsil Nazirliyində "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" mövzusunda konfrans keçirilib.

Konfrans ümummilli liderimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra ulu öndərimizin zəngin həyat yolu, təhsil sahəsi ilə bağlı çıxışları və təhsil müəssisələrində keçirdiyi görüşlərdən ibarət sənədli film iştirakçılara təqdim olunub.

Təhsil naziri Misir Mərdanov çıxış edərək Heydər Əliyevin 30 ildən artıq ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycanın yüksəlişi, iqtisadiyyatının inkişafı, dünyada tanınması sahəsində atdığı tarixi addımları xüsusi qeyd edib. Nazir ümummilli liderimizin milli ruhun, dövlətçilik ənənələrinin qorunub saxlanması istiqamətində əvəzsiz xidmətləri olduğunu və gələcək nəsillərə dəyərli ideyalarla zəngin irs bəxş etdiyini vurğulayıb.

Konfransda Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Seyfəddin Qəndilov, Azərbaycan Dillər Universitetinin rektoru Səməd Seyidov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Yusif Məmmədov və Bakı Slavyan Universitetinin rektoru Kamal Abdulla ulu öndərlə bağlı xatirələri yada salıb, onun dövlət idarəçiliyi sahəsindəki xidmətlərini xüsusi qeyd ediblər. Natiqlər ümummilli liderimizin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həmin siyasi kursu uğurla davam etdirdiyini diqqətə çatdırıblar.